*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 215-222* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091) Yaşar Qasımbəyli *

# AZƏRBAYCANIN POEZİYA BAYRAĞINDA DALĞALANAN DƏNİZ


### *Xülasə*

Məqalədə XX yüzil Azərbaycan poeziyasında qüdrətli sənətkarımız Əhməd Cavadın "Qara dəniz" şeiri ilə başlanan qiymətli bir ənənənin ədəbi müqayisəli müstəvidə təhlilindən bəhs edilir. Məlumdur ki, Qara dənizin və ona bitişik böyük torpaqlarımızın itkisi tariximizin ən faciəvi səhifələrindən biridir. Ustad sənətkarlarımızın bu mövzudakı şeirlərini oxuyarkən XX yüzil faciələrinin çox qədimlərdən başlandığını, başqa sözlə, Qərbi Azərbaycan, Qarabağ və başqa əlimizdən alınan torpaqların qəsdinə bir neçə əsr öncə fərman verildiyinin ağrısını yaşayırıq. "Qara dəniz" şeirləri bizi milli mentalitetimiz və milli varlığımız haqqında, tarixi və bağışlanılmaz yanlışlıqlarımız barəsində dərindən düşünməyə vadar edir. Zəruri və təbii şəkildə, öz mahiyyətinə və təyinatına uyğun olaraq, cəfakeş poeziyamız və poetik yaddaşımız milli-etnik faciələri unutmamağa, xalqımızın mənəviyyatında canlı, heç zaman qaysaqlanmayan yaralar kimi yaşamasına xidmət edir.


**Açar sözlər:** "Qara dəniz", XX yüzil Azərbaycan poeziyası, Əhməd Cavad, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Fikrət Qoca

## WAVING SEA IN AZERBAIJANI POETRY FLAG


### *Summary*

In the article is dealt with literary comparative analysis of a valuable tradition starting with poem "The Black Sea" by Ahmed Javad, mighty craftsman in Azerbaijani poetry of XX century. It's known that the loss of the Black Sea and our large lands adjacent to it is one of the most tragic pages of our history. Reading poems written by our main poets on this, we see that the tragedies of the twentieth century began long ago and a decree was issued against the lands of Western Azerbaijan, Garabagh and other occupied lands a few centuries ago. "The Black Sea" poems induce us to think about our national mind and national existence, our history and unforgettable mistakes. In accordance with their essence and purpose, our poetic and poetic memory serves to not forget about our national-ethnic tragedies and helps them live in the spirituality of our people.


**Key words:** "The Black Sea", Azerbaijani poetry of XX century, Ahmed Javad, Rasul Rza, Bakhtiyar Vahabzade, Mammad Araz, Fikret Goja

## ВОЛНИСТОЕ МОРЕ НА ЗНАМЕНИ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ


### *Резюме*

В статье исследуется в литературно-сопоставительном аспекте ценная традиция, начатая со стихотворения «Чёрное море» талантливого творца азербайджанской поэзии XX века Ахмеда Джавада. Как известно, Чёрное море и потеря прилегающих к нему обширных территорий одна из трагических страниц нашей истории. Читая стихи наших мастеров поэзии на эту тему, понимаем, что эти трагедии XX века берут начало с древних времён, иными словами, вновь переживаем боль за намеренно захваченные у нас по высокому указу несколько веков тому назад Западный Азербайджан, Гарабаг и другие земли.

Стихотворение «Чёрное море» заставляет нас глубоко задуматься о нашем национальном менталитете и национальной сущности, о наших непростительных исторических ошибках. Естественно, призывает не забы-


* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya elmləri doktoru. E-mail: yashargasimov@mail.ru

вать трагических национально-этнических ошибок нашей многострадальной поэзии и поэтической памяти, к насущной необходимости, согласно своему духовному назначению, хранить в духовной памяти нашего народа вечных душевных, не зарубцевавшихся ран.

**Ключевые слова:** «Чёрное море», азербайджанская поэзия XX века, Ахмед Джавад, Расул Рза, Бахтияр Вагабзаде, Мамед Араз, Фикрет Годжа

**Giriş.** Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad və başqa romantiklərin ədəbiyyat tarixindəki ən böyük xidmətlərindən biri də onların Azərbaycan bədii təfəkkürünü ümumtürk tarixi idealları və həmrəyliyi zirvəsinə yüksəldə bilmələrindən ibarətdir. Azərbaycan ədəbiyyatının ümumtürk estetik məndəricəsi və müstəvisindən uzaqlaşması prosesi ayrıca bir tədqiqatın problemidir. Məhəmməd Füzuli dahiyanə bir uzaqgörənliklə "Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım, Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?!", – deyə fəryad edərkən təkcə özünün məzlum və zəbun aşiq taleyini deyil, eyni zamanda hələ XVI əsrdə ikən böyük türk ellərini və dövlətlərini sürətlə öz ağuşuna almaqda olan misilsiz etno-milli müsibət və fəlakətləri də öncədən görmüş və ehtiva etmişdi. XVII-XVIII əsrlərdə daha geniş vüsət alan bu parçalanma və bölünmələr – etno-milli nüvədən və mənbədən uzaqlaşma, demək olar ki, bütün türk dünyasını və türk coğrafiyasını öz içinə almışdı.

Yalnız XX yüzil Azərbaycan ədəbiyyatı XIX əsr ədəbiyyatının bu yöndə atdığı addımları və gördüyü işləri dərinləşdirməyə və inkişaf etdirməyə özündə güc tapa bildi. XVII-XVIII əsrlərdə Molla Pənah Vaqif, Məhtimqulu Fəraqi, Turdi Fəraqi və azər, türkmən, özbək, qazax, qırğız, qaraqalpaq ozanlarının, aşıqlarının, akınlarının, baxşı və el şairlərinin ehtirasla can atdıqları və vəsf etdikləri ümumtürk arzuları və idealları ötən yüzilin əvvəllərindən etibarən qardaş türk ədəbiyyatlarının ən başlıca işinə və qarşısıalınmaz mənəvi ehtiyacına çevrildi. Amma bu taleyüklü məsələləri və vəzifələri layiqincə həll etmək üçün türk ədəbiyyatlarına amansız tale son dərəcə qısa bir zaman məsafəsi ayırmışdı; qardaş türk ədəbiyyatlarının bu yöndəki hərəkətləri Sovetlər imperiyasının "qırmızı qaranlıqları" içində boğulmağa məhkum idi.

XX yüzil Azərbaycan lirikasını özünün poetik cəsarəti və kəşfləri ilə zənginləşdirən Əhməd Cavadın "Qara dəniz" şeiri bədii təfəkkürümüzün hüdudlarını misilsiz dərəcədə genişləndirən bir əsər kimi məhz bu nöqteyi-nəzərdən diqqəti cəlb edir və böyük tarixi əhəmiyyətə malikdir. 1914-cü ildə Birinci Cahan müharibəsində Türkiyənin iştirakından hədsiz duyğulanan şair bu şeiri ilə təkcə Türkiyəyə deyil, bütün türklüyə təəssübünü və sevgisini bədii təcrübədə az rast gəlinən bir ilham və ehtirasla ifadə etmişdi.

*Çırpınırdı Qara dəniz*
*Baxıb Türkün bayrağına!*
*"Ah!..." deyərdim, heç ölməzdim*
*Düşə bilsəm ayağına.*
*Ayrı düşmüş dost elindən,*
*İllər var ki, çarpar sinən!..*
*Vəfalıdır gəldi, gedən*
*Yol ver, Türkün bayrağına! [1, s. 140]*

Əhməd Cavadın "Qara dəniz"i dəhşətli və "mədəni" yırtıcılarla üz-üzə gəlmiş türk dünyasını birliyə və həmrəyliyə çağırışı ilə böyük əhəmiyyətə malik olması öz yerində. Amma bu şeir Azərbaycan etnopoetikasının unutduğu və yadırğadığı bədii təxəyyül qatlarından doğulduğuna görə də hədsiz dəyər daşıyırdı. AMEA-nın müxbir üzvü, görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev "Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı – Əhməd Cavad" məqaləsində aşağıdakıları vurğulayırdı: "...Ə.Cavadın sonralar bütün Türkiyədə az qala milli himn qədər kütləvi şəkildə oxunan və

sevilən əsəri "Çırpınırdı Qara dəniz" olur... Göy gölə, milli bayrağa, Qara dənizə və Dəli Kürə ən yaxşı şeirləri o illərdə Əhməd Cavad yazıb. "Azərbaycan sözü" ilk dəfə bu rübabda poetik mübtədaya, xəbərə dönüb, Əhməd Cavadın yazdığı nəğmədə təkrir və nəqərat olub" [2, s.7].

*İncilər tök, gəl yoluna,*
*Sırmalar səp sağ, soluna!*
*Fırtınalar dursun yana,*
*Salam Türkün bayrağına! [1, s.140].*

"Qara dəniz" metaforası türk yaddaşının məğlubiyyətlərdən öncəki – zəfərlər və qalibiyyətlər dövrünün işarəsi idi. Təbii ki, Qara dəniz həsrəti milli yaddaşda yaşayırdı. Bir an da, bir gün də unudulmamışdı. Amma milli yaddaş ağrısının estetik yaddaş faktına çevrilməsindən ötrü nə az, nə çox, bir neçə yüz il lazım olmuşdu. Azərbaycan şeirinin Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani zirvələrinə bu həsrət enməmişdi, bu kədər yağmamışdı. Məhz Türkiyənin və türklüyün taleyi Qərbin antihumanizmi və qeyri-insani ehtirasları tərəfindən sınağa çəkiləndə, ölüm və qalım dilemması qarşısında dayananda, milli yaddaşın üsyanı estetik yaddaşın üfüqlərində görünməyə başlamışdı. Əgər türk dünyasının tarixi faciələrini Hüseyn Cavid bədii təfəkkürə gətirmişdisə, onun taleyinin yeni dövrdəki ölüm-dirim çağlarını və çabalarını ədəbiyyata gətirmək Əhməd Cavadın şərəfli və danılmaz xidmətidir. Türküstanda Çolpan və Türkiyədə Mehmet Akif Ersoy kimi Əhməd Cavad da Azərbaycanda millət üçün döyüşən və çarpışan poeziyanın banisidir:

*Dost elindən əsən yellər,*
*Bana şer, salam söylər.*
*Olsun bizim bütün ellər*
*Qurban Türkün bayrağına!*
*Yol ver Türkün bayrağına! [1, s.140]*

Beləliklə, Əhməd Cavadın "Qara dəniz"ində coğrafi məkan və ünvan yüz faizli etno-poetik işarə kimi çıxış edir. Daha doğrusu, Qara dəniz türkün yaddaşının və mənəviyyatının bir parçası, siyasi-hərbi əzəmətinin tarixi-coğrafi rəmzi, türk dünyasının adının, şanının və şərəfinin ifadəsi kimi mənalandırılır.

Təbii ki, sovet dövründə, xüsusən stalinizm repressiyalarının vüsət aldığı 30-cu və 40-cı illərdə nə Dədə Qorqudu, nə Koroğlunu, nə də türkün tarixini və Qara dənizi xatırlamaq olardı. Yalnız 50-ci illərin sonu və 60-cı illərdən etibarən milli poetik təfəkkür özünün qadağan olunan və yadırğadığı sahillərinə qayıtmağa başladı. Həmin sahillərdən biri də bu illər ərzində daha da uzaqlaşmış və "yadlaşmış" doğma Qara dəniz idi.

Çağdaş bədii düşüncəyə Qara dəniz həsrətini qaytaran şairlərdən biri ustad Rəsul Rzadır. Onun 60-cı illərin əvvəllərində qələmə alınmış "Qara dəniz sahilində düşüncələr" şeiri yeni poetik epoxanın etno-poetik manifesti kimi qiymətləndirilə bilər. Kifayət qədər irihəcmli və əzəmətli bu şeirdə "Qara dəniz" məkanı və obrazı müəllifə öz əsrinin ən kəskin və ən acı həqiqətlərini söyləməyə imkan vermişdi. Səkkiz hissədən və ya şeirdən ibarət olan bu böyük şeiri ümumdünya və ümuminsan faciələri haqqında əsər hesab etmək olar. Amma bu ümumdünya dəhşətləri fonunda ümumtürk faciələrini də göstərməyə müəllif cəsarət etmişdi. Rəsul Rzanın "Qara dəniz"i haqqında düşüncələrimizi ümumiləşdirərkən şeirin əvvəlinə – proloquna fikir verməyi lazım bilirik. Şeir çox qəmgin, həzin və dramatik misralarla başlanır. Müəllif sanki öz iztirablarını dünyaya bəyan etmək və dərdlərin əlindən qurtulmaq üçün dənizə üz tutub, ona müraciət edir:

*Qara dəniz qapqaradır;*
*adının oyatdığı təsəvvürdən qara.*

*Qəzəbini boğmuş adam kimi qara.*
*Dalğalar söykənib buludlara.*
*O tayda sən və siz.*
*Arada acıqlı Qara dəniz [3, s.50].*

Əgər üçüncü və ya dördüncü şeirlərdə ümuminsani dərdlər və müsibətlər üstünlük təşkil edirsə, başqa şeirlərdə biz Qara dəniz obrazının və tragizminin türk çalarlarını müşahidə edirik: "Balıq olaydım, Nə elə balaca ki, böyüklərin yemi. Nə elə böyük ki, udduqca udub, doydura bilməyəm gövdəmi. Balıq olaydım. Adicə balıq. Öz rəngim, üzgəclərim. Nə kabablıq, nə şorbalıq. Balıq olaydım. Və danışa biləydim". Rəsul Rza "Qara dəniz"in çoxmənalı və polifonik kontekstində bütün dünyaya, yer üzünə, o cümlədən öz ölkəsinə də açıq və cəsarətli səslə müraciət edib deyirdi:

*Hamıya yer çatar*
*planetin mavi su çanağında.*
*Özünüz də gəzin, dolaşın*
*oğlunuz, qızınız da,*
*yeznəniz, oğlunuzun bacanağı da.*
*Ancaq məhv etməyin xırdaları!*
*Toxunmayın xırda balıqlara.*
*Onların da səbrinin*
*hüdudu var ha... [3, s.51].*

Rəsul Rza öz "Qara dəniz"ində milli faciələrimizi də məharətlə ifadə edib. Qara dənizin və ətrafının yadellilər tərəfindən zəbt edilməsini, bir vaxtlar türk xanlarının və xaqanlarının torpaqlarında düşmənlərin at oynatmasını, doğma torpaqların bölünə-bölünə yadlaşması və itirilməsini də şair ağrı ilə xatırlayır. Aşağıdakı poetik suallar həmin ağrı və iztirabların bədii ifadəsidir:

*Torpaq harda başlayır?*
*Bilmirəm.*
*Torpaq harda qurtarır?*
*Bilmirəm [3, s. 51].*

Məhz bu kədər "Qara dəniz"in oyatdığı ovqatın məzmununu müəyyənləşdirir. Dənizin gözəlliyinin və dənizin yaratdığı riqqətin heç bir mənası yoxdur. Çünki lirik "mən"in qəlbindəki həsrət və dərd o qədər sonsuzdur ki, onları əritməyə və yox etməyə dəniz də acizdir. Bu misralardakı sarsıntı və iztirablar Əhməd Cavadın üsyankar və hayqıran türkanə kədəri ilə qandaş və qohumdur:

*Meh əsir. Qara dəniz*
*səyriyir ləpələrlə.*
*Cıldır-cıldır şəfəqlər*
*sanki təbəssümündür.*
*Neyləyirəm dənizi,*
*neyləyirəm günəşi,*
*qəlbimdə yuvalanmış*
*bu həsrətlə, kədərlə [3, s.52].*

Rəsul Rzanın "Qara dəniz"ində açıq və aydın türk həsrəti qabarıq ifadə olunub. Yeddinci şeirdə müəllif, təbii olaraq, Nazim Hikməti də xatırlayır. Şairin Qara dəniz həsrəti Nazim Hikmətin həsrəti ilə birləşərək böyük həsrət qatı yaradır:

*Üfüqdə göy gözlərin sarı həsrəti.*
*Bir səs: – oğlum, oğlum! – deyə*
*çağırır Məməti... [3, s.53].*

“Qara dəniz”lərin milli-poetik ənənəsi və Qara dəniz yaddaşı XX yüzilin ikinci yarısındakı poeziyamızda da canlı və sirayətedici olmuşdur. İtirilmiş Vətən və türk torpaqlarının ağrısı çox vaxt Qara dəniz kodu altında ümumiləşdirilmişdir. Hüseyn Cavidin, Məhəmməd Hadinin, Əhməd Cavadın, Nazim Hikmətin, Səməd Vurğun və Rəsul Rzanın türk-etno poetik təfəkkürünün miqyası və sərhədləri barəsindəki düşüncələri bu dövr Azərbaycan ədəbiyyatında və poeziyasında əks-səda verməsi, qanunauyğun və təbii bir hal idi. 50-60-cı illərdən başlanan poetik yenilənmə və yüksəlişin, milli düşüncə oyanışının bayraqdarlarından olan xalq şairi Bəxtiyar Vahabzadənin həmin dövrdə qələmə aldığı bir çox əsərlər yuxarıda söylədiklərimizi təsdiq etməkdədir. Ustad sənətkarın bu mövzudakı axtarışları özünəməxsusluğu və problemin bədii-fəlsəfi həllinə yeni çalarlar əlavə etməsi ilə səciyyələnir. Bəxtiyar Vahabzadə özünəqədərki poeziyada mərkəzi mövqeyə malik Qara dəniz itkisi və həsrətini daha geniş müstəvidə və tragik-emosional üslubda təqdim edir. “Krımda tatar qəbirləri” (1966) şeirində Qara dənizdən başqa və Qara dənizdən daha çox sahibsiz qalmış, sahibləri məhv edilmiş və yoxa çıxmış sahillərin – Qara dəniz sahillərinin keçmişlərdən bugünümüzə gəlib çatan amansız, dözülməz hayqırtısı eşidilir:

*Torpağın altında yatır yerlilər,*
*Üstündə gəlmələr kefdə, damaqda.*
*Yerlinin dərdini yersiz nə bilər?*
*Yerlinin haqqını o, tapdamaqda.*
*Gəlmə haqlı bilir özünü, haqlı!*
*Yerlinin yurduna yolları bağlı [4, s. 28].*

Bu sətirlərin daşıdığı acı kədər və dözülməz yaşantılar XX yüzilin ən dəhşətli milli genosid faktlarından biri haqqında dərindən düşünməyə vadar edir. Bütün oğullarını və kişilərini cəbhəyə, Hitler Almaniyası ilə döyüşə göndərən cəfakeş Krım torpağı daha bir – dünyada misli görünməmiş müsibətləri yaşamağa məhkum edilmişdi. 1944-cü ilin mayında Stalinin repressiya və qətliam maşını bu dəfə bütöv bir ölkəni, bütöv bir milləti yer üzündən silməyi, gedər-gəlməzə, Sibirə və uzaq Qazaxıstan çöllərinə sürgün etməyi hədəfə almışdı. Krım-tatar xalqı 1944-cü ilin 18 mayında, hələ öz oğullarının cəbhədən gəlişini görməmiş, qadınlar və gəlinlər öz ərlərini qarşılamamış, balaca uşaqlar öz atalarının, qardaşlarının, əmilərinin və babalarının vüsalından doymamış doğma vətənlərindən didərgin salındılar. Rusiya çarizminin XVII əsrin sonları və XVIII əsrin əvvəllərindən başladığı Qara dəniz sahillərini türklərdən təmizləmək və Krım-tatarlarını öz doğma torpaqlarından qovmaq siyasəti İkinci Dünya müharibəsinin amansız gurultuları və dəhşətləri fonunda “uğurla” başa çatdırıldı. 1944-cü ilin mayından – 1991-ci ilin dekabrına qədər Krım torpağına ayaq basmaq krım-tatarlara qadağan olundu. Şair “Gəlmə haqlı bilir özünü, haqlı! Yerlinin yurduna yolları bağlı”, – misralarını yazarkən ötən yüzilin məhz bu dəhşətli olaylarını nəzərdə tutur və öz müasirlərinin vicdan duyğusunu tərpətməyə, bir az oyatmağa can atırdı. Şeirin ikinci bəndi düşüncə və yaşantıların tragizmi dərəcəsinə görə daha emosional siqlətə malikdir:

*Bilmirəm Krımın öz sahibləri*
*Bu torpaq altında necə dincəlir?*
*Millət bu diyardan gedəndən bəri*
*Ruhlar öz yurdunu ziyarət üçün*
*Sibirəmi gedir, buramı gəlir? [4, s.28]*

Qara dəniz sahillərinin qeybə çəkilmiş sahibləri və onların dərk olunmaz taleyi şairi dərdli xəyallara qərq edir. Bir vaxtlar bu torpağın üstündə xoşbəxt yaşamış insanlar gəlmələrin ayaqları altında necə "yaşadığını", "dincəldiyini" təsəvvür etməyə çalışır müəllif. Yerin üstünü millət tərk etməli olub, bəs yerin altındakıların taleyi necə keçir? Ruhlar öz vətənlərini ziyarət etmək üçün göylərdən hara enir görəsən? Yerin altındakıların yanınamı? Və ya yerin üstündəkilərin sürgün edildiyi Sibir çöllərinəmi gedir görəsən? Son dərəcə dəhşətli və cavabsız suallardır. Bədii təfəkkürdə tragizmin əsas qaynaqlarından biri isə məhz qarşı-qarşıya gələn həqiqətlərin kəskinlik dərəcəsi, bədii-fəlsəfi sualların cavabsızlığı ilə səciyyələnir. B.Vahabzadə isə zamanın ən kəskin təzadlarını poetik müstəvidə təqdim etməyə üstünlük verən sənətkarlardan biri kimi diqqətəlayiqdir. Şair əsrin ən böyük və amansız əksliklərindən birinin ehtimal oluna biləcək ardıcıllığını özünəməxsus tərzdə təqdim edir:

*Tatar məzarları... əl açıb göyə*
*Torpağı qaldırıb niyə qabarmır?*
*Ölülər yer altda, görəsən, niyə*
*Haqq deyə qışqırıb fəryad qoparmır?*
*Krımı götürüb çiyinlərinə*
*Millət olan yerə niyə aparmır? [4, s.28]*

Müəllif xalqın başına gələn misilsiz müsibətləri təsvir edərkən özü də sanki çıxılmaz bir vəziyyətə düşür. Tarixin və dünyanın bu çıxılmazlığından əlac axtararkən, qeyri-ixtiyari olaraq, yerin altındakıları, məzarları xilaskar olmağa çağırır. O, qəbirlərin altında yatanlara öz ana torpaqlarını – Krımı öz sahibləri və millət olan yerə aparmağa səsləyir. Poetik fikir tarixində bu cür faciəviliyi, əlacsızlığa və məğlubiyyətə şeiriyyətin ürəkləri titrədən, insan varlığını yandıran üsyanını təsəvvür və ya müşahidə etmək çətindir. B.Vahabzadə məzarlardan sonra ikinci və sonuncu xilaskar kimi Qara dənizə xitab edir. Şair sanki dənizə yalvarır, onu dilə tutur və yadelliləri, gəlmələri öz sularında qərq etməyə səsləyir:

*Məzarlar bu yurdun öz sahibləri*
*Niyə bu zillətin bağrını sökmür?*
*Torpağın üstündə sahibkar kimi*
*Gəzən gəlmələri dənizə tökmür? [4, s.28]*

Xalq şairi B.Vahabzadə "Krımda tatar qəbirləri" şeirini 60-cı illərin ortalarında qələmə almışdır. Təbii ki, o vaxt bu şeirdə deyilənləri də, bu şeirin adını da dilə gətirmək, tələffüz etmək mümkün deyildi. Ustad sənətkarın sənət emalatxanasındakı gizli və sirli şedevrlərdən biri kimi biz bu əsəri də məhz müstəqillikdən sonra oxumaq xoşbəxtliyinə nail olduq. Sovet dövründə qardaş krım-tatar xalqının müsibətli taleyinə həsr olunmuş bu şeir bu gün daha tragik və daha yandırıcı səslənməkdədir. Biz bu sətirləri oxuyarkən böyük ustadın qəlbindən uzaq 60-cı illərdə bir vulkan kimi püskürən və hayqırıq kimi yazılan bu şeirdə yalnız qardaş krım-tatar və başqa repressiyaya məruz qalmış türk xalqlarının deyil, həm də özümüzün, krım-tatarlarının taleyindən heç də az müsibətli olmayan Qərbi Azərbaycan türklərinin, anamız Qarabağın faciələrinin də əks etdiyini duyuruq.

Qara dəniz nisgili və həsrəti altmışıncıların da bədii təxəyyülündə doğma və məhrəm obrazlardan birinə çevrilib. Hüseyn Cavid, Cəfər Cabbarlı, Əhməd Cavad, Mikayıl Müşfiq və Rəsul Rza kədəri onlar üçün son dərəcə əziz və müqəddəs idi. Məhz buna görə də Qara dəniz motivləri və obrazı xalq şairi Məmməd Arazın yaradıcılığı üçün də son dərəcə doğma və aparıcı mövqeyə malikdir. Görkəmli sənətkarın 60-cı illərdə qələmə aldığı bir sıra şeirlərdə Qara dənizlə bağlı həsrət motivlərinin və duyğularının inikasını müşahidə edirik. Müəllifin "Azəri nəğməsi" (1968) şeiri bu

cəhətdən səciyyəvidir. Maraqlıdır ki, milli kimliyin poetik pasportu kimi düşünülən və yazılan bu şeirdə ən məhrəm, ən doğma hissiyatlar, anlayışlar, obraz və motivlər kontekstində Qara dəniz də özünə yer alıb. "Azəri nəğməsi" şeirinin ən gözəl və səmimi parçalarından biri bizə Xəzər qədər əziz və doğma olan Qara dənizin şərəfinə ünvanlanıb:

*Sahilə çıxıram, Qara dənizlə*
*Oturub üz-üzə,*
*Diz-dizə danışmaq istəyirəm mən,*
*Xəzəri soruşmaq istəyirəm mən:*
*- Məktub alırsanmı Xəzərdən, de bir?*
*Xəzri dəcəlinin kefi necədir?*
*Gilavar qızı bəs?*
*O bar qızı bəs –*
*Sahil bağlarına yol açmayıb ki?*
*Saçı qayalara dolaşmayıb ki?*
*Arazdan nə xəbər, Kürdən nə xəbər,*
*Sənin çay qızların bəlkə bilələr... [5, s.316]*

"Azəri nəğməsi" şeirində Qara dənizin xatırlanması Azərbaycan poeziyasının milli-estetik yaddaşı barəsində dərindən düşünməyə vadar edir. Məlum olduğu kimi, bu şeir milli bədii düşüncənin poetik manifesti kimi qələmə alınıb. Məhz bu səbəbdən də bu şeirdə milli mahiyyətimizin və varlığımızın əsas məfhumları, əsas ünvanları müəllifin diqqət mərkəzindədir. Söz sənətimizin, musiqi sənətimizin, tariximizin ən yüksək və müqəddəs zirvələri – aşıq sənətimiz, Koroğlu, Nizami, Nəsimi, Füzuli, Xətai, M.Ə.Sabir, Üzeyir Hacıbəyli, Bülbül və çağdaş klassiklərimizə qədər böyük sənət şəxsiyyətlərini müəllif hörmət və ehtiramla yada salır. Maraqlıdır ki, bu sırada, bu silsilədə şair anamız Xəzərlə yanaşı, doğma Qara dənizi də unutmur. Bu sadəcə yaddaşın istəyi, mənəvi ehtiyacı deyil, bunun səbəbləri daha dərindir. Burada Qara dəniz bizim milli kimlik yaddaşımızın mənəvi-estetik özülü və təməl anlayışlarından biri kimi çıxış edir. Məhz buna görə də Qara dənizi Azərbaycan poeziyasının bayrağında dalğalanan ən möhtəşəm və müqəddəs poetik obrazlardan biri adlandırmaq olar.

Fikrət Qocanın "Qara dəniz" adlı gözəl şeiri də 60-cı illərdə yazılıb. İlk baxışda o, dəniz mənzərəsi haqqında lirik əsər təsiri bağışlayır:

*Qəzəbindən ağarıb,*
*Qara dənizim, rəngin.*
*Dalğaların,*
*qəzəbli pəncəsi kimi pələngin,*
*sahili cırmaqlayır.*
*Elə bil sahil qaçmaq istəyir,*
*dalğaları tutur, saxlayır [6, s.34].*

F.Qocanın "Qara dəniz"ində də sahil motivi qabardılıb. Bu şeirdə də müəllif rəmzi ümumiləşdirmələr yolu ilə gedib. Qəzəbli Qara dənizin pələng pəncələri sahili didib parçalamaq istəyir. Sahil isə dənizin qəzəb və ittihamlarından qorxub qaçmaq istəyir. Qara dəniz öz doğmalarını axtarır, yadlaşmış sahilləri özündən uzaqlaşdırmağı arzulayır:

*Sahildə yaralı göyərçinə dönürsən,*
*Lal adam xəbər gətirən kimi*
*çırpınıb döyünürsən [6, s.34].*

Müəllifin çox uğurla tapdığı "yaralı göyərçin" və "lal adam" metaforaları onun ovqatını və estetik məqsədini vurğulayır. Şair sanki bu misralarda öz ürək ağrılarını və niyyətini ehtiyatla söyləmək istəyib:

*Baxışlarımla tumarlayıram səni,*
*ay sirlərin bağlı sandığı,*
*Qara dənizim! [6, s.34]*

Eyni zamanda müəllif "sirlərin bağlı sandığı" etnopoetik simvolu ilə türk dünyasının faciələrinə işarə etsə də, lirik fikrin dinamikası bu nöqtədə dayanmır, ümuminsani və dünyəvi miqyaslara sarı hərəkət edir:

*Balıqların duzlu vətəni,*
*Gəmilərin mavi qəbiristanlığı,*
*Qara dənizim! [6, s.34]*

**Nəticə.** XX yüzil Azərbaycan şeirinin beş görkəmli nümayəndəsinin "Qara dəniz" və Qara dəniz sahilləri barəsindəki şeirlərini nəzərdən keçirərkən, bir mühüm həqiqətə əminlik hasil edirik; Qara dəniz həsrəti, təkcə türk torpaqlarının deyil, ümmanlarımızın itkisinin də bizim üçün unudulmaz ağrı və iztirab olduğunu göstərir. Məhz buna görə də şeirimizdə böyük Əhməd Cavadla başlayan, ustad Rəsul Rza tərəfindən dərinləşdirilən və çağdaş şeirimizin bir sıra klassikləri tərəfindən davam etdirilən Qara dəniz yaşantıları milli mənəviyyatımızın və poeziyamızın müqəddəs duyğularıdır.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı keçən əsrin milli-estetik dəyər baxımından ən qiymətli təcrübə və ənənələrini inkişaf etdirərkən, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, C.Cabbarlı və başqaları kimi təkrarsız klassiklərimizlə bir sırada sevimli və ölməz sənətkarımız Ə.Cavadın da əbədiyaşar poetik örnəklərini, vətəndaşlıq və yaradıcılıq cəsarətlərini unutmur.

## ƏDƏBİYYAT

1. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005.
2. Yaşar Qarayev. Cümhuriyyət dövrü və onun poeziyada yaddaşı – Əhməd Cavad. Bax: Ön söz. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005.
3. Rəsul Rza. Seçilmiş əsərləri. 4 cilddə, I cild. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1967.
4. Bəxtiyar Vahabzadə. Axı dünya fırlanır. Şeirlər və poemalar. Bakı, "Kitab klubu" MMC, 2017.
5. Məmməd Araz. Seçilmiş əsərləri. 4 cilddə, I cild. Bakı, "Ozan", 2003.
6. Fikrət Qoca. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2004.